E-1495

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– N.F.Nəsibova, E.Ş.Qafarov

etiraz verən iddiaçı "MUSTAFA NEVZAT İLAÇ SANAYİİ ANONİM ŞİRKETİ" (TR)
nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə patent müvəkkili T.A.Yaqubovanın etiraz ərizəsi üzrə işə baxaraq müəyyən etdi:

19.12.2017-ci il tarixdə iddiaçı "MUSTAFA NEVZAT İLAÇ SANAYİİ ANONİM ŞİRKETİ" (TR) */ünvan:Prof. Dr. Bülent Tarcan Sok., Pak İş Merkezi No:5/1, Gayrettepe Beşiktaş TR-34349 İstanbul (TR)/* **"INTRASEF"** əmtəə nişanının 05-ci sinifin əmtəələri üzrə 1312417 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 10.08.2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, ekspertizanın 10.08.2017-ci il tarixli qərarına əsasən aşağıdakı iddia edilmiş nişana bütün 05-ci sinif əmtəələri üçün Azərbaycan Respublikası ərazisində hüquqi mühafizə verilməmişdir.

| | |
|---|---|
| iddia edilmiş | **"INTRASEF"** |
| Beynəlxalq qeydiyyat № | 1312417 |
| Qeydiyyat tarixi | 22.06.2016 |
| İddiaçı | "MUSTAFA NEVZAT İLAÇ SANAYİİ ANONİM ŞİRKETİ" (TR) |

| | |
|---|---|
| Sinif | 05 |

Ekspertizanın qərarına əsasən iddia edilmiş nişan Azərbaycan Respublikasında daha əvvəl qeydiyyata alınmış aşağıdakı nişanla qarışdırılacaq dərəcədə oxşar olduğuna görə 05-ci sinif əmtəələri üçün qeydə alına bilməz:

| | |
|---|---|
| Qarşı qoyulmuş nişan | **"intrafen"** |
| Beynəlxalq qeydiyyat № | 1225799 |
| Qeydiyyat tarixi | 10.07.2014 |
| Sahibi | "GEN ILAÇ VE SAGLIK ÜRÜNLERI SANAYI VE TICARET ANONIM SIRKETI" (TR) |
| Sinif | 05 |

İddiaçı ekspertizanın bildirilmiş və qarşı qoyulmuş nişanların qarışdırılacaq dərəcə oxşar olması haqqında fikri ilə razı deyil və öz nişanının müdafiəsi üçün nişanların istehlakçılar tərəfindən qarışdırılması mümkün olmadığını sübut edən aşağıdakı dəlillərin nəzərə alınmasını xahiş edir.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun (daha sonra – Qanun) 6-cı maddəsinin "b" bəndinə uyğun olaraq:

*"Aşağıdakılarla eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır:*

*b) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə uyğun olaraq Azərbaycan Respublikasında daha əvvəl mühafizə edilən əmtəə nişanları".*

Beləliklə, bildirilmiş və qarşı qoyulmuş nişanların istehlakçılar tərəfindən müqayisəsi zamanı yaranan ümumi intellektual obrazların üst-üstə düşdüyü zaman nişanların oxşarlığı müəyyən edilə bilər. **Bu halda bildirilmiş və qarşı qoyulmuş nişanların yaratdığı ümumi qavrama obrazlarının, semantik dolğunluğunun və intellektual təsirinin müxtəlif olduğundan nişanların istehlakçılar tərəfindən qarışdırılması mümkünsüz olması açıq-aşkar olur ki, bu da nişanların və onların ümumi obrazlarının istehlakçılar tərəfindən qavramasının aşağıdakı müqayisəli təhlil çərçivəsində göstərilmişdir.**

İddia edilmiş nişan qalın ayrılma tətbiqi, elementlərin şaquli istiqamətə yönəlməklə uzununa çəkilməsi və təsvirə trafaret effektini verən elementlərin arasındakı artırılmış interval ilə yerinə yetirilmiş sözlü nişanı ifadə edir. Nişan aydın, dəqiq, kontrast obrazın yaratmasını ümumilikdə şərtləndirərək şaquli və diaqonal xətti hərf elementlərinin və iti bucaqların üstünlüyü ilə baş hərflərlə yerinə yetirilmişdir. İddia edilmiş nişanın yalnız baş hərflərlə yerinə yetirilməsinə görə ümumi vizual obraz qrafik quruluşun həmcinsliyi ilə xarakterizə olunur, nişanın üfüqi müstəvidə uzununa çəkilməsini şərtləndirən elementlərin arasındakı intervalın artırılması isə həmçinin nişanın istehlakçılar tərəfindən yadda saxlanılmasına yol verərək onun fərdi obrazını müəyyən edir. İddia edilmiş nişanın fonetikası istehlakçılar tərəfindən aşağıdakı kimi qəbul olunacaqdır:

[İN-TRA-SEF]

Nişan 3 heca (2 qapalı, 1 açıq), 8 səsdən (3 sait, 5 samit) ibarətdir. İddia edilmiş nişan ön hissəsində cingiltili samit səslərin və son hissəsində kar samit səslərin olması ilə səciyyələnir ki, bu da ümumilikdə nişanın artikulyasiya xüsusiyyətlərini şərtləndirir. İddia edilmiş nişanın semantik dolğunluğu onun dərman preparatının markalanması üçün təyin olunması ilə şərtlənir. Belə ki, nişan iddiaçının süni nominasiyası nəticəsidir və o, mürəkkəb sözlərin tərkibində "daxilində" mənasını verən "INTRA" sözünü və eləcədə markalanması üçün İddia edilmiş nişanın istifadəsi nəzərdə tutulan əczaçılıq preparatının təsir göstərən "Ceftriaxone" maddəsinin adından fonetik törəmə olan "SEF" hissəsindən əmələ gəlmişdir. Bildirilmiş təsir göstərən maddə özündən sefalosporin qrupuna aid olan geniş təsir spektrli antibiotiki ifadə

edir. 10 oktyabr 2005-ci il tarixli “Dərman vasitələrinin adlarının rasional seçilməsi” Metodoloji tövsiyələrinə əsasən:

*“Müxtəlif dərman formalarında buraxılan dərman preparatlarını onların tərkibinə daxil olan dərman vasitəsi (əczaçılıq substansiyası) kimi adlandırmaq tövsiyə olunur”.*

Beləliklə, iddia edilmiş nişanın semantik dolğunluğu, assosiativ olaraq, markalanması üçün bildirilmiş nişan nəzərdə tutulan dərman vasitəsinin tərkibinə, məhz geniş spektrli antibiotikə təsir göstərən intellektual obrazı yaradır. İddiaçı MN Pharmaceuticals kimi tanınmış “MUSTAFA NEVZAT İLAÇ SANAYİİ ANONİM ŞİRKETİ” (TR) şirkəti Türkiyədə aparıcı və köhnə əczaçılıq şirkətlərindəndir. Şirkət 1923-cü ildə İstanbulun Üsküdar kimi tanınmış rayonunda Türkiyədə inyeksiya məhsullarının ilkin istehsalçılarından biri olan “Mustafa Nevzatın Laboratoriyası” adı altında təsis olunmuşdur. Onun təsisçisi olan professor Mustafa Nevzat Pisak türk əczaçılıq sənayesinin yaradılmasında və inkişafında böyük rol oynamışdır. Hal-hazırda şirkət Türkiyədə aktiv əczaçılıq inqrediyentlərinin və hazır dərman formalarının aparıcı istehsalçılarından biridir. Şirkət İstanbulda müasir ixtisaslanmış, əczaçılıq preparatlarının bütün əsas formalarını istehsal edən 4 zavoda malikdir. Bununla belə iddiaçının məhsulları şirkətin firma loqotipi olan ilə markalanmışdır ki, bu da iddiaçı-şirkətinin məhsullarını dəqiq eyniləşdirir və onun əmtəələrinin digər istehsalçıların əmtəələri ilə qarışdırılmasına yol vermir. Şirkətin məhsulları həmçinin yerli və beynəlxalq əczaçılıq şirkətləri ilə sıx əlaqə vasitəsilə də reallaşdırılır, onun ixracı isə dünyanın müxtəlif ölkələrinə həyata keçirilir. **Beləliklə, distinktiv qrafik, fonetik və intellektual obraza malik olan İddia edilmiş nişan Türkiyədə məşhur əczaçılıq şirkətlərindən biri olan iddiaçı-şirkətinin orijinal brendidir.**

İddia edilmiş nişandan fərqli olaraq, qarşı qoyulmuş nişan kombinasiya edilmiş şəklindədir və qara rəngli çərçivə ilə, ortasında sözlü element yerləşdirilmiş ağ dördbucaq şəklində olan qrafik element ilə ifadə olunmuşdur. Söz hissəsi kiçik hərflərlə, qalın ayrılma tətbiqi ilə standart şriftlə yerinə yetirilmişdir. Hərf icrasında dəyirmi xətlərin çoxluğuna və iti bucaqların olmamasına görə söz elementi ümumilikdə rəvan və zərif obraza malikdir. Bununla belə böyük ölçü ilə fərqlənən “i”, “t” və “f” hərflərinin yazılışını nəzərə alaraq görə bilərik ki, vizual görünüş müxtəlif tərkiblidir. Həmçinin nişanın icrasının səciyyəvi cəhəti onun başlanğıc və son hissələrində “n” hərfinin təkrar olunması və eləcədə “t” və “f” hərflərinin simmetrik yerləşməsidir ki, bu da, öz növbəsində, bildirilmiş nişanda olmayan nişanın ümumi simmetriyasını şərtləndirir. Üfüqi dinamikaya və hərflərinin arasında böyük məsafəyə malik olan bildirilmiş nişandan fərqli olaraq qarşı qoyulmuş nişan statik, sıx və simmetrik qrafik obraza malikdir. Nişanların distinktiv xüsusiyyətlərini müəyyən edən bir sıra fərqlərin olmasına görə bildirilmiş və qarşı qoyulmuş nişanların qrafik cəhətdən qarışdırılması mümkünsüz olması barədə nəticəyə gəlmək olar.

Qarşı qoyulmuş nişanın fonetikası aşağıdakı kimidir:

[İN-TRA-FEN]

Nişan 3 heca (2 qapalı, 1 açıq), 8 səsdən (3 sait, 5 samit) ibarətdir. Qarşı qoyulmuş nişanın tələffüzü cingiltili samitlərin çoxluğu və eləcədə nişanın başlanğıc və son hissələrində “n” samitinin təkrar olunması ilə xarakterizə olunur ki, bu da tələffüzün artikulyasiya xüsusiyyətlərini yaradır. Həmçinin qeyd etmək lazımdır ki, nişanların vurğulu hecalarının səs tərkibi müxtəlifdir. **Beləliklə, iddia edilmiş və qarşı qoyulmuş nişanlar fərqli səs tərkibinə malikdir ki, bu da fərqli tələffüzü şərtləndirir. İddia edilmiş və qarşı qoyulmuş nişanları fonetik cəhətdən qarışdırılmasına yol vermir.**

Qarşı qoyulmuş nişan preparatın adı süni nominasiya nəticəsində, mürəkkəb sözlərin tərkibində “daxilində” mənasını verən “INTRA” sözünü və eləcədə ağrıkəsici və hərarəti salma təsirinə malik, qeyri-steroid iltihab əleyhinə preparat olan təsir göstərən “IBUPROFEN” maddəsinin adından götürülmüş “FEN” hissəsinin birləşməsindən əmələ gəlib. Beləliklə, qarşı qoyulmuş nişanın semantik dolğunluğu, assosiativ olaraq, ağrıkəsici və hərarəti salma təsirinə malik olan dərman preparatının təsirinə və tərkibinə göstərir.

İddia edimiş nişanların oxşarlığa və eyniliyə dair yoxlanması üzrə Metodik tövsiyələrə (N.P. Qreşnyova, V.V. Orlova, Moskva – 1999) əsasən:

*“Nişanların qrafik oxşarlığından fərqli olaraq məna oxşarlığı müstəqil cəhət kimi də çıxış edə bilir. Nişanın məna oxşarlığının olması (və ya əksinə, olmaması) müqayisə olunan nişanların, onların səsli oxşarlığın olmasına baxmayaraq (KOMPAS (cihaz), KONPAS (ixtira olunmuş söz)), oxşar olmayanlar kimi qəbul edilməsində kömək edə bilir”.*

**Yuxarıda qeyd olunanlara əsasən iddia edimiş nişanın semantik cəhətdən qarşı qoyulmuş nişandan qarışdırılacaq dərəcədə xeyli fərqləndiyinə görə onların ümumi intellektual obrazlarının fərqli olması haqqında nəticə çıxarmaq olar ki, bu da, öz növbəsində, iddia edimiş və qarşı qoyulmuş nişanların ayrı elementlərinin fonetik oxşarlıqlarını neytrallaşdırır və onların istehlakçılar tərəfindən qarışdırılma ehtimalını istisna edir.** Qarşı qoyulmuş nişan sahibi olan “GEN ILAÇ VE SAGLIK ÜRÜNLERI SANAYI VE TICARET ANONIM SIRKETI”-nin (TR) bütün məhsulları, əlavə olaraq, şirkətin firma loqotipi olan ilə markalanır ki, bu da şirkətin məhsullarını fərqləndirir və onun əmtəələrinin digər istehsalçıların əmtəələrilə qarışdırılmasına yol vermir. **Beləliklə, iddia edimiş və qarşı qoyulmuş nişanların müqayisəli təhlilini nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, müqayisə olunan nişanların qrafik, fonetik və semantik cəhətdən qarışdırılacaq dərəcədə oxşar nişanlar kimi qəbul olunması mümkünsüzdür.** Markalanması üçün bildirilmiş və qarşı qoyulmuş nişanlarda istifadə olunan məhsullar ixtisaslı mütəxəssislər tərəfindən apteklərdə satılan dərman preparatları qrupuna aiddir.

ÜƏMT-in “Əqli mülkiyyət əsasları” adlı nəşrə əsasən:

*“Əmtəə kateqoriyasının qarışdırılacaq dərəcədə oxşar olmasının yoxlanılmasına təsir edə bilməsi haqqında daha bir maraqlı məsələni əczaçılıq məhsulları sahəsində axtarmaq lazımdır. Həkimlərin yazdığı dərman preparatları istehlakçılara, adətən, müxtəlif təyinatlı dərman preparatları üçün istifadə olunan oxşar firma nişanları barəsində yanılda bilməyən ixtisaslı əczaçılar tərəfindən satılır, belə ki oxşarlığın yoxlanılması bu halda daha az səmərəli ola bilər”.*

Hər iki dərman preparatları yalnız öz bilikləri və təcrübəsi sayəsində müxtəlif təyinatlı fərqli əczaçılıq preparatlarını səhv sala bilməyən əczaçılar tərəfindən satıldığı üçün iddia edimiş və qarşı qoyulmuş nişanların həm həkimlər və əczaçılar, həm də adi istehlakçılar tərəfindən qarışdırılması mümkünsüzdür.

İddia edimiş və qarşı qoyulmuş nişanlar paralel olaraq Türkiyədə, Qazaxıstanda və Rusiyada yanaşı mövcuddur, bu isə o deməkdir ki, adı çəkilən ölkələrin ekspertizaları iddia edimiş və qarşı qoyulmuş nişanları qarışdırılacaq dərəcədə oxşar hesab etmirlər və bu, öz növbəsində onu göstərir ki, müqayisə olunan nişanlar Azərbaycan Respublikası ərazisində bir-birinə maneçilik törətmədən yanaşı mövcud ola bilərlər.

**Beləliklə, iddia edimiş və qarşı qoyulmuş nişanlar arasında qrafik, fonetik və semantik cəhətlər üzrə fərqləri, eləcədə onların ümumi intellektual obrazlarının fərqlərini, iddia edimiş və qarşı qoyulmuş nişanların tamamilə fərqli təyinatlı preparatların adları qismində istifadə olunmasını və onların əczaçılar tərəfindən satılmasını, məhsulların iddiaçı-şirkətlərinin firma loqotipləri ilə əlavə markalanmasını, iddia edimiş və qarşı qoyulmuş nişanların bir sıra ölkələrdə paralel olaraq qeydiyyat edilməsini və yanaşı mövcudluğunu nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, iddia edimiş və qarşı qoyulmuş nişanların qarışdırılma ehtimalı mümkünsüzdür, iddia edimiş nişanın Azərbaycan Respublikası ərazisində qeydiyyata alınması və onun gələcəkdə istifadə olunması isə nişanların istehlakçılar tərəfindən qarışdırılmasına səbəb olmayacaq. Yuxarıda şərh olunanları nəzərə alaraq 1312417 saylı beynəlxalq qeydiyyatlı “INTRASEF” nişanına** 05-ci sinif əmtəələri üzrə **Azərbaycan Respublikası ərazisində hüquqi mühafizənin verilməsini** Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurasının iclası zamanı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova çıxış edərək bildirmişdir ki, **“INTRASEF”** və qarşı qoyulmuş **“intrafen”** əmtəə

nişanları türk firmalarının nişanlarıdır. Hər iki nişan mənşə ölkəsində, yəni Türkiyədə qeydiyyata alınmışdır. **“INTRASEF”** əmtəə nişanı 05.03.1993-cu il tarixində qeydiyyata alınmışdır (№ 141307). **“intrafen”** əmtəə nişanı isə 20.02.2013-cü il tarixində qeydiyyata alınmışdır (№ 2013 15486). Yuxarıda qeyd olunanlardan göründüyü kimi, **“INTRASEF”** əmtəə nişanı mənşə ölkəsində qarşı qoyulmuş nişandan daha əvvəl qeydə alınmışdır. “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının” 6quinques maddəsini rəhbər tutaraq **1312417** saylı beynəlxalq qeydiyyatlı **“INTRASEF”** əmtəə nişanının qeydiyyata alınmasını xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili T.A.Yaqubovanın çıxışını dinləyib, hesab edir ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası etiraza baxılma prosesində qeyd etdi ki, nişanların oxşarlığını müəyyən etmək üçün “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.6.1-ci maddəsi “Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir”, 29.6.2-ci “Səs üzrə (fonetik) oxşarlıq”, 29.6.3-cü “Qrafiki (görünüşlü) oxşarlıq”, 29.6.4-cü “Məna etibarı ilə”, 29.9.1 (“Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olmaları müəyyən edilərkən, bu əmtəələrin və ya göstərilən xidmətlərin eyni sahibkara məxsus olması barədə istehlakçıda yarana biləcək təsəvvürlər nəzərə alınır”) və 29.9.2 (“Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olması müəyyən edilərkən, xüsusən əmtəənin cinsi (növü) və ya göstərilən xidmətin xarakteri, onların təyinatı, əmtəənin hazırlanmış olduğu materialın növü, əmtəənin satışının və ya göstərilən xidmətlərin şərtləri, istehlakçıların dairəsi və digər şərtlər nəzərə alınır”) bəndlərində göstərilən əlamətlər nəzərə alınmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, “MUSTAFA NEVZAT İLAÇ SANAYİİ ANONİM ŞİRKETİ (TR)” şirkəti tərəfindən **“INTRASEF”** (IR1312417) adlı əmtəə nişanı 05-ci sinifin əmtəələri üzrə 22.06.2016-cı il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 06.10.2016-cı il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2016/39 Gaz).

Ekspertiza **“INTRASEF”** (IR1312417) adlı əmtəə nişanının qeydiyyata alınmasına dair rədd qərarını, Azərbaycan Respublikasında daha əvvəlki ilkinliyə malik olan 10.07.2014-cü il tarixində 05-ci sinif əmtəələri üzrə "GEN ILAÇ VE SAGLIK ÜRÜNLERI SANAYI VE TICARET ANONIM SIRKETI (TR)" /ünvan: Mustafa Kemal Mahallesi 2119, Sokak No:3 D:2-3, Çankaya, TR-06520 Ankara (TR)/ adına beynəlxalq qeydiyyata alınmış **“intrafen”** (IR 1225799) adlı əmtəə nişanına əsaslanaraq vermişdir.

Apellyasiya şurası **“INTRASEF”** və **“intrafen”** əmtəə nişanlarını müqayisə edərək, qeyd etdi ki, əmtəə nişanlarında oxşarlıq yaradan element “INTRA” sözüdür. Əmtəə nişanlarının fərqləndirici hissə isə “SEF” *(mənası yoxdur)* və “fen” *(bataqlıq və s. mənası daşıyır)* hissələrdən ibarətdir.

Hər iki nişan mənşə ölkəsi olan Türkiyədə qeydiyyata alınmışdır. **“INTRASEF”** əmtəə nişanı 05.03.1993-cu il tarixində qeydiyyata alınmışdır (№ 141307). **“intrafen”** əmtəə nişanı isə 20.02.2013-cü il tarixində qeydiyyata alınmışdır (№ 2013 15486).

“Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının” 6quinquies maddəsində qeyd edilmişdir ki, “Mənşə ölkəsində müəyyən olunmuş qaydada qeydiyyata alınmış hər bir əmtəə nişanı, İttifaqın digər ölkələrində, bu maddədə göstərilmiş şərtlər nəzərə alınmaqla olduğu kimi mühafizə edilir”.

Göstərilənləri nəzərə alaraq Apellyasiya şurası hesab edir ki, **“INTRASEF”** nişanı “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci və 4-cü maddələrinin tələblərinə cavab verir.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.6.1-ci, 29.6.2-ci, 29.6.3-cü və 29.6.4-cü bəndlərini nəzərə alaraq “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrini, 6-ci maddəsinin “a” və “b” bəndlərini, “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının” 6quinquies maddəsini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. **“INTRASEF”** əmtəə nişanının 05-ci sinifin əmtəələri üzrə 1312417 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 10.08.2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən verilmiş ərizə əsaslı hesab edilsin və təmin olunsun.

2. **“INTRASEF”** əmtəə nişanının 05-ci sinifin əmtəələri üzrə 1312417 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 10.08.2017-ci il il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.

3. **“INTRASEF”** əmtəə nişanının 05-ci sinifin əmtəələri üzrə 1312417 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.

4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri: Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov